# ABŞ yerli əhalini məhv edərək öz dövlətini yaradıb




## Milli Məclisin bəyanatında Ağ Evin ölkəmizə qarşı siyasətinin mahiyyəti açıldı

"Noyabrın 21-də Milli Məclisin ABŞ Senatının qəbul etdiyi qərarla bağlı bəyanatı tarixi sənəddir. Hələ 1919-cu il mayın 28-də Paris Sülh Konfransında Azərbaycan nümayəndə heyətinə rəhbərlik edən Əlimərdan bəy Topçubaşov ABŞ prezidenti Vudro Vilsonla görüşmüşdü. Əlimərdan bəy sonralar öz xatirələrində yazırdı: "ABŞ prezidenti bizi gülər üzlə qarşılamadı və onun mənə birinci sualı da belə oldu: Kartli-Kaxetiya, İmeretiya, Georgiya, Hayastan dünəndən məlum, bəs bu Azərbaycan hardan çıxdı? Əslində, Azərbaycan tərəfi olaraq Amerikaya nələr təklif elədiksə, onların heç birini qəbul etmədi. Ancaq onun bizə tövsiyəsi bu oldu ki, bir dövlət tapın, Avropa dövləti, onun himayəsini qəbul edin. Bizə İtaliyanı məsləhət bildi. Ancaq biz axıra qədər mübarizə apardıq və Paris Sülh Konfransının Ali Şurası Azərbaycanı de-fakto tanıdı". Bütün bunlar tarixi reallıqlardır. ABŞ-nin hələ 1918-1920-ci illərdə mövcud olan cümhuriyyətə münasibəti bu idi".



Milli Məclisin deputatı Anar İsgəndərov qəzetimizə açıqlamasında deyib ki, Azərbaycan ikinci dəfə dövlət müstəqilliyini yenidən bərpa etdikdən sonra Ermənistan və ona havadarlıq edən qüvvələr torpaqlarımızın 20 faizini işğal etdi, 30 il müddətində ərazilərimizdə daşı-daş üstə qoymadılar. İnsanları öz evindən, eşiyindən, qaçqın və köçkün düşməyə məcbur elədilər, əmlakları yandırıldı. Amma bu 30 il ərzində ABŞ Ermənistanı bir dəfə də olsun işğalçı adlandırmadı.

Deputat vurğulayıb ki, ABŞ bu müddət ərzində işğala məruz qalanla işğal edən arasında heç bir fərq görməyib: "Amerikanın ədaləti budurmu? Sual olunurmu ki, ABŞ yaranarkən həmin ərazidə vaxtilə kimlər yaşayırdı? İnklər, asteklər və magiyaların taleyi necə oldu? Əgər bir dövlət qurularkən bu ərazidəki yerli əhali məhv edilirsə, həmin dövlətin necə ədaləti ola bilər? ABŞ-nin, onun rəhbərliyinin ədalətsizliyi erməni lobbisi, erməni diasporundan deyil, Amerikanın xarakterindən doğur. Milli Məclisin bəyanatında da Amerikanın Azərbaycana qarşı olan illər boyu yürütdüyü siyasətin mahiyyəti açıldı, eyni zamanda o da vurğulandı ki, bugünkü Azərbaycan 90-cı illərin Azərbaycanı deyil. Bu gün qalib, güclü, öz haqqını müdafiə edə bilən, 30 il ərzində düşmən işğalı altında qalan torpaqlarını azad edən Azərbaycan var. Bu gün Ermənistanın bütün hiylələrini, iç üzünü açan, faş edən bir Azərbaycan var. Bu gün Qərb bizimlə hesablaşmalıdır, çünki Azərbaycan regional dövlət deyil. Prezident İlham Əliyev Mərkəzi Asiyada, türk-müsəlman dünyasında, Avropada tanınan şəxs, güclü dövlət başçısı, qətiyyətli Ali Baş Komandandır".

ABŞ-nin Azərbaycana qarşı oyunlarının artıq hamı tərəfindən görüldüyünü qeyd edən A.İsgəndərov bildirib ki, əslində, Amerikanı müdafiə edən də yoxdur. Çünki Cənubi Qafqazın iki dövləti arasında böyük fərq qoymaq, işğalçını əzabkeş, göz yaşı tökən dövlət adlandırmaq, amma öz tarixi torpaqlarını geri qaytardığına görə Azərbaycanı "etnik təmizləmə"də günahlandırmaq gülüncdür. Ermənistanın baş naziri özü etiraf edir ki, erməni əhalisinə qarşı etnik təmizləmə olmayıb, BMT-nin göndərmiş olduğu müşahidə qrupu da heç bir etnik təmizləmə faktının olmadığını açıqlayıb. Bəs ABŞ və onun Senatı etnik təmizləməni haradan çıxartdı?

Amerikanın Azərbaycanı 907-ci düzəlişin yenidən qüvvədə olacağı ilə hədələdiyini xatırladan deputat vurğulayıb ki, Azərbaycanın ABŞ-dən qorxacaq bir şeyi, almaq istədiyi nəsə yoxdur. "Azərbaycanın imkanları genişdir və heç bir dövlətin, o cümlədən ABŞ-nin maddi yardımına ehtiyacı olmayıb. Bu gün isə heç ehtiyacı yoxdur. Milli Məclisin bəyanatı bir daha göstərdi ki, Azərbaycan qalib ölkədir, suverenliyini öz hesabına bərpa edib. Bu gün 100 il bundan əvvəl Sovet Rusiyasının diktəsi ilə yaradılan "Dağlıq Qarabağ" qurumu da yoxdur. Azərbaycanın bütün ərazilərində üçrəngli bayrağı şərəflə dalğalanır. Bu bəyanatın da ana mahiyyəti ondan ibarətdir ki, xalq-dövlət, iqtidar-xalq birliyi güclü olan Azərbaycana heç bir kənar qüvvə, heç bir böhtan təsir edə bilməz", - deyə deputat əlavə edib.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 23 noyabr, № 255.- S.10.